Yeni Azərbaycan Partiyasının yaranmasının ildönümü qeyd olunmuşdur



Qəbələdə noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 24-cü ildönümü qeyd edilmişdir.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı, Yeni Azərbaycan Partiyası rayon təşkilatı idarə heyətinin üzvü cənab Səbuhi Abdullayev, YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov, rayon təşkilatının şura üzvləri, partiya fəalları və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Onlar əvvəlcə ümumilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, ulu öndərin işıqlı xatirəsini dərin ehtiramla yad etmişlər. Sonra tədbir iştirakçıları partiyanın ildönümü münasibətilə ağacəkmə kompaniyası keçirmişlər.

Yeni Azərbaycan Partiyası rayon təşkilatının üzvləri Heydər Əliyev prospektinin kənarlarında və şəhərin şimal hissəsində bu günün şərəfinə 1200 meyvə ağacı tingləri əkmişlər.

Qeyd etmək lazımdır ki, Yeni Azərbaycan Partiyasının qabaqcıl dəstələrindən olan Qəbələ Rayon Təşkilatının təsis konfransı 1993-cü ilin sentyabrında keçirilmişdir. İlk konfransını 150 nəfər təşəbbüsçü ilə keçirən rayon təşkilatının sıralarında bu gün 6000 nəfərdən artıq YAP üzvü vardır. 23 yaşlı rayon təşkilatı respublikadakı bütün siyasi tədbirlərdə—seçkilərdə, referendumlarda həmişə yüksək fəallıqla iştirak etmişdir. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının əhali arasında böyük nüfuzu vardır. Buna görədir ki, partiya sıralarına qəbul olunmaq istəyənlərin sayı gündən-günə artır. Partiya sıralarına qəbul olunanlar arasında gənclər və qadınlar çoxluq təşkil edir.

«Qəbələ».

İlkin Vəlizadə.

Ədliyyə İşçiləri Günü keçirilmişdir

Ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş 22 noyabr ədliyyə işçilərinin peşə bayramı hər il ölkəmizdə təntənəli surətdə qeyd edilir.

Noyabrın 22-də Qəbələdə Ədliyyə İşçiləri Günü keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, rayon məhkəməsinin və digər hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə müasir Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək onun abidəsi önünə tər çiçəklər qoymuşlar.

Sonra tədbir Qəbələ Rayon Məhkəməsinin iclas zalında davam etdirilmişdir. Burada məhkəmə aparatının işçiləri, Qəbələdə fəaliyyət göstərən icra, qeydiyyat şöbələrinin, ASAN xidmətin əməkdaşları bir araya gəlmişlər.

Bayram tədbirini açan Qəbələ Rayon Məhkəməsinin sədri Vahid Sadıqov ədliyyə işçilərini bir daha peşə bayramı münasibətilə təbrik etmiş, Azərbaycanın ədliyyə sisteminin zəngin tarixindən, ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən və Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılmasından, bunun üçün həyata keçirilmiş əsaslı tədbirlərdən geniş danışmışdır. Vahid Sadıqov çıxışında ulu öndər Heydər Əliyev siyasi kursunu layiqincə və uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin daha da qüdrətlənməsi, ədliyyə sisteminin təkmilləşdirilməsi üzrə genişmiqyaslı islahatların aparılması, insan hüquqlarının etibarlı təmin olunması, vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə xidmət edən ədliyyə infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərdən ətraflı söz açmışdır.

Tədbirdə cıxış edənlər iştirakçılar adından ədliyyənin fəaliyyətinə böyük diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıq ifadə etmişlər.

«Qəbələ».

İlkin Vəlizadə.

Tolerantlıq nümunəsi-Qəbələ

Qəbələ mükəmməl multikulturalizm prinsiplərinin, milli-mənəvi dəyərlərin, mədəniyyətlərin sistemli inkişafının, milli-etnik zənginiliyin, tolerant cəmiyyətin əyani nümunəsidir. Əsrlər boyu müxtəlif xalqların mehribanlıq, sülh və qarşılıqlı etimad şəraitində yaşadıqları Qəbələ rayonu tolerantlıq sahəsində bütün dünyaya nümunə ola bilər desək yanılmarıq.

Rayonda multikulturalizm və tolerantlıq insanlar tərəfindən bir həyat tərzi kimi qəbul edilmişdir.

104.000 nəfərdən çox əhalisi olan Qəbələnin milli tərkibinin 78,9 faizini azərbaycanlılar, 17,1 faizini ləzgilər, 3,7 faizini udilər, 0,1 faizini türklər və 0,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Burada milli və dini mənsubiyyətindən asılı olmayaraq hamı bayramlarda və hüznlü günlərdə birlikdə olur, vahid ailə kimi yaşayır. Ümumtəhsil məktəblərinin ibtidai siniflərində ləzgilər və udilər üçün öz ana dillərində dərslər tədris olunur. Qəbələ şəhərinin iki, Nic qəsəbəsinin üç məktəbində tədris rus dilində aparılır.

Rayon ərazisində 43 məscid və 1 kilsə vardır. 22 islam, 1 xristian dini icması fəaliyyət göstərir.

Hansı ölkədə xristian icması müsəlmanlar üçün iftar süfrəsi təşkil edir? Çətin ki, Azərbaycandan başqa belə bir ölkə tapılsın. Bu ənənənin əsası tolerantlıq mühitinin daha çox hakim olduğu Qəbələ rayonunda qoyulub. Rayonun Nic qəsəbəsində kompakt halda yaşayan udi xristianlarının məhz kilsədə qəsəbənin müsəlman icması üçün iftar süfrəsi təşkil etməsi tolerantlığın bariz nümunəsidir.

(Ardı 7-ci səhifədə).

Əsas kapitala yönəldilmiş ümumi vəsaitin 16,2 faizi tikintiyə sərf edilib

Cari ilin yanvar-oktyabr aylarında ölkəmizin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11 milyard 889,2 milyon manat vəsait yönəldilib.

Dövlət Statistika Komitəsi bildirir ki, əsas kapitala yönəldilmiş sərmayədə müəssisə və təşkilatların vəsaitləri 8 milyard 168,4 milyon manat, bank kreditləri 1 milyard 265,6 milyon manat olub. Büdcə vəsaitləri 1 milyard 634,8 milyon manat, büdcədənkənar fondların vəsaitləri 125,5 milyon manat, əhalinin şəxsi vəsaitləri 431,6 milyon manat, digər vəsaitlər 263,3 milyon manat təşkil edib.

Həmin dövr ərzində əsas kapitala yönəldilmiş ümumi vəsaitin 66,9 faizi sənayeyə, 16,2 faizi tikinti, 9,1 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinə, 1,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,5 faizi dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat, hər birində 0,9 faiz olmaqla informasiya və rabitəyə, təhsilə istiqamətləndirilib. Bundan başqa, ümumi vəsaitin 0,8 faizi səhiyyə, 0,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsinə, 0,5 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyətə, 0,4 faizi ticarət, 0,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, hər birində 0,1 faiz olmaqla peşə, elmi və texniki fəaliyyət və digər sahələrdə xidmətlərin göstərilməsinə sərf edilib.